**K.Ş.KAZIMOV**
*filologiya elmləri doktoru, professor*
*e-mail: kkamran@mail.ru*
**:https://orcid.org/0000-0003-4801-3823**

**Z.S.HEYDƏROVA**
*e-mail: heyderova.zehra30@gmail.com*

**Lənkəran Dövlət Universiteti**
(Lənkəran şəh., General H.Aslanov xiyabanı, 50)

**10.62021/0026-0028.2025.3.297**

# ELŞAD SƏFƏRLİ POEZİYASINDA VƏTƏN MÜHARİBƏSİ MÖVZUSU VƏ VƏTƏNƏ SEVGİNİN TƏRƏNNÜMÜ

***Xülasə.*** *Məqalədə müasir Azərbaycan ədəbiyyatının tanınmış, istedadlı şairlərindən biri olan Elşad Səfərlinin yaradıcılığında müharibə mövzusunun və vətənpərvərlik ideyalarının əksi araşdırılmışdır. Əsərlərində Qarabağ müharibəsinin gerçəklikləri, xalqın yaşadığı ağrılar və qələbəyə aparan mübarizə ruhu təhlil olunmuşdur. Müəllifin poetik üslubu, obrazlar sistemi və tarixi hadisələrə baxışı geniş şəkildə şərh edilmişdir.*

*Məqalədə Elşad Səfərlinin yaradıcılığı fonunda vətənpərvərlik ideyasının ədəbi kontekstdə necə formalaşdığı nəzərdən keçirilmiş, şeir və poemalarında vətənə sevgi, milli birlik, şəhidlik zirvəsi, düşmənə nifrət və torpağa bağlılıq kimi mühüm mövzuların yer aldığı vurğulanmışdır. Xüsusilə, İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan xalqının çəkdiyi iztirablar və bu mübarizənin ədəbiyyatda poetik ifadəsi əsas diqqət mərkəzində saxlanılmışdır.*

***Açar sözlər:*** *Vətənpərvərlik, İkinci Qarabağ müharibəsi, şəhidlik, Məmməd Araz, milli birlik*

Vətənpərvərlik – bir xalqın milli kimliyini qoruyub saxlamaq və onu gələcək nəsillərə ötürmək baxımından mühüm əhəmiyyət kəsb edən ali dəyərlərdən biridir. Tarix boyunca Azərbaycan xalqı öz torpağına, millətinə və mədəniyyətinə olan dərin sevgisini nümayiş etdirərək bu dəyərləri yaşatmağı qarşısına məqsəd qoymuşdur. Müasir dövrdə vətənpərvərlik təkcə silahlı mübarizədə deyil, həm də elm, mədəniyyət və ictimai fəaliyyətdə özünü göstərir. İstedadlı Azərbaycan şairi Elşad Səfərli də məhz bu yüksək mənəvi prinsiplərə bağlı qalaraq öz həyatını vətənə xidmətə həsr edən şəxslərdən biridir. Əsərlərində vətən sevgisi, milli kimlik, tarixə və xalqın mübarizəsinə olan dərin hörmət canlanır. Məhz bu mövzuda şairin qələmə aldığı kitabları arasında "İki çiçəyin dastanı" mühüm rol oynayır. Kitab Elşad Səfərlinin sayca XVI nəşridir. Azərbaycan mətbuatına və kitab nəşrinə töhfə vermiş görkəmli mətbuat işçisi Şəddat Cəfərov yazır*: "Bir şair olaraq Elşad Səfərli vətənini dərin bir məhəbbətlə sevir. Onun həyat kitabı kimi qavradığımız "İki çiçəyin dastanı"nda Azərbaycanın birliyini, bütövlüyünü tərənnüm edən əsərləri çoxdur. E.Səfərlinin yaradıcılıq xüsusiyyətlərinin əsasları kimi qavradığımız cəhət Vətənə, yurd həsrətinə, milli ruha, torpağa, özünəqayıdışa, soykökünə bağlılıq ideyasıdır. Onun əksər şeirlərinin ruhunu, milli əxlaq, türkçülük, Azərbaycançılıq təşkil edir"* [1, s.11]. Şairin "Səsləniş" şeiri də bu dəyərlərin bir növ təcəssümüdür:

Genişləndir bir vaxt geniş
Sərhədləri, Azərbaycan
Xəritəsini bərpa et,
Ulu Xətai dövrünün.

Dustaq düşən yerlərinin
Çırağını qoş dövrənin... [1, s.11]

Burada şair tarixi Azərbaycan torpaqlarının zamanında daha geniş olduğunu və bu sərhədlərin yenidən bərpa edilməsinin vacibliyini vurğulayır. *"Bir vaxt geniş"* ifadəsi Azərbaycan dövlətçiliyinin Şah İsmayıl Xətai dövründəki əzəmətinə işarə edir və oxucuya keçmişin qüdrətini xatırladır. Şeirdə *"dustaq düşən yerlər"* həm keçmişdə itirilmiş torpaqlara, həm də Qarabağ və digər bölgələrin işğal dövrünə işarə edə bilər. *"Çırağını qoş dövrənin"* ifadəsi isə işığın yandırılması, yəni bu torpaqlara yenidən həyat verilməsi, azad edilməsi mənasını daşıyır. Burada işıq simvolik məna daşıyır – ümid, qurtuluş və dirçəliş anlamına gəlir.

Elşad Səfərlinin 2016-cı ildə nəşr olunan "Alması düşməyən nağıllar" kitabı şairin fərqli dünyagörüşü və bədii üslubunu ortaya qoyan önəmli bir əsərdir. Vətənpərvərlik, millətin taleyi, torpaq sevgisi və azadlıq arzusu əsərdə dərin poetik təhlillərlə təqdim edilir. Kitaba daxil olan "Təkcə Bakı Vətən deyil" şeirində şairin vurğulamaq istədiyi əsas mövzu vətənin yalnız bir şəhər və ya coğrafi ərazi olmaması, həm də bütün Azərbaycan torpaqlarını, kəndlərini və hətta işğal altındakı əraziləri əhatə etməsidir:

Çox Vətən deyən var, məgər
Bir dağ kəndi Vətən deyil?!
O kənd bu gün işğaldasa,
O kənd indi Vətən deyil?! [5, s.22-23]

Bu misralarda, şair *"Vətən"* sözünün çox geniş və dərin bir anlamı olduğunu ifadə edir. Şairə görə yalnız böyük şəhərlər və inkişaf etmiş ərazilər vətən sayılmamalıdır**.** Bir dağ kəndi də Vətən olaraq qiymətləndirilməlidir. O kəndin işğal altında olması onun vətən olma xüsusiyyətini dəyişdirmir, əksinə, onun vətənə aid olma xüsusiyyəti daha da dərinləşir, çünki işğal olunmuş torpaq, xalqın mübarizəsinin və azadlıq arzusunun təcəssümüdür. Şair Vətəni yalnız fiziki sərhədlər və böyük şəhərlərlə məhdudlaşdırmır, əksinə hər bir kəndin və hər bir torpağın, işğal altında olsa belə həm fiziki, həm də mənəvi olaraq Vətən olduğunu vurğulayır.

2020-ci il 44 günlük Vətən müharibəsindən sonra yazılan ədəbi nümunələr şəhidlərimizin qəhrəmanlığını və xalqımızın Vətən sevgisini əks etdirən güclü bədii əsərlər kimi diqqət çəkir. Alim-naşir Şəddat Cəfərovun da qeyd etdiyi kimi: *"İkinci Qarabağ savaşında qələbəmiz demək olar ki, ədəbiyyatımızda böyük canlanma yaratdı. Yazılan, çap olunan hər bir əsərdə Qarabağ sevgisinin tükənməzliyini, coşqusunu hiss etdik. Bu yanaşmada Elşad Səfərli də istisna deyil. O da qələbəni tərənnüm edən əsərlər yaratdı"* [2, s.8]. Bu kontekstdə Elşad Səfərlinin "Bir anın yuxusu" poemasını və onun təsvir etdiyi müharibə gerçəkliyini təhlil etmək, eyni zamanda elmi rəhbərim prof. Kamran Kazımov oğlu şəhid leytenant Vüsal Kazımovun həyat yolunu araşdırmaq, milli yaddaşımız üçün olduqca əhəmiyyətlidir.

Elşad Səfərlinin "Bir anın yuxusu" poemasında Qarabağ müharibəsi zamanı qəhrəmanlıq göstərmiş Azərbaycan əsgərinin duyğuları, iç dünyası və həyat fəlsəfəsi poetik şəkildə təqdim olunur. Poemada əsas mövzu vətən sevgisi və şəhidlik zirvəsinə ucalan qəhrəmanların ölümsüzlüyüdür. Poema bir əsgərin ruhu ilə gerçək dünyanın arasında qalan yuxusuna bənzədilir. Əsgər müharibənin ağırlığını hiss edir, lakin bu hisslər onun mübarizə əzmini sarsıda bilmir.

Elşad Səfərli poemada dil və üslub baxımından milli ruhu oxucuya ötürə bilmişdir. Onun istifadə etdiyi poetik təsvirlər şəhidlərin ruhunun əbədiyaşarlığını simvolizə edir. Əsər müasir Azərbaycan poeziyasında vətənpərvərlik mövzusunda yazılmış ən təsirli nümunələrdən biri kimi qiymətləndirilə bilər. Poemanın "Ön söz"ündə Vaqif Yusiflinin qeyd etdiyi kimi: *"Bu poema lirik səpkidədir, şairin şəhid-qəhrəman balamıza həsr etdiyi poetik himn kimi yazılıb... hər bəndi, hər parçası od kimidir. Soyuq ürəkdən gəlməyən misralara rast gəlinmir"* [7, s.6].

Azərbaycan xalqı üçün 30 il ərzində işğal altında qalan torpaqlar yalnız bir coğrafi məkan deyil, həm də bir qürur məsələsi, unudulmaz bir həsrət və bərpa olunması zəruri olan tarixi ədalət idi. 1990-cı illərin əvvəllərində Qarabağ torpaqlarının işğalı xalqın qəlbində sağalmaz bir yara açdı. Bu illər ərzində torpaqlarımızın hər qarışı həsrətlə xatırlandı, hər bir azərbaycanlı doğma yurduna qayıdacağı günü gözlədi. Ancaq artıq zaman yetişmişdi. Azərbaycan xalqının qəlbində yanan Vətən eşqi və qələbəyə olan inamı 2020-ci ildə öz nəticəsini verdi. 44 günlük Vətən müharibəsi yalnız işğal altındakı torpaqların azad olunması deyil, həm də tarixi ədalətin bərpası idi. Bu torpaqlar bir zamanlar Azərbaycan əsgərinin, şəhidlərimizin qanı ilə yoğrulmuşdu. İndi isə o torpaqlara qalib əsgərlərimizin ayaq basması, üçrəngli bayrağın dalğalanması bir xalqın yenidən dirçəlişi demək idi.

…Bunu bacardı
Azərbaycan ordusu.
Əzəli sərhədlərinə vardı
Azərbaycan armadası. [7, s.22]

Vüsal Kazımov Vətən müharibəsində böyük igidliklər göstərmiş Azərbaycan oğullarından biridir. O, 44 günlük müharibə zamanı şücaətlə vuruşaraq torpaqlarımızın azad olunmasında iştirak etmişdir. Onun döyüş yoluna nəzər saldıqda vətənə olan sonsuz sevgisi və əzmkarlığı aydın görünür.

Vüsal Kazımov kiçik yaşlarından vətənpərvər ruhda böyümüş, hərbi xidməti zamanı yüksək intizamı və döyüş bacarığı ilə fərqlənmişdir. Müharibə başladıqdan sonra o, cəbhəyə könüllü yollanaraq düşmən qüvvələrinə qarşı amansız mübarizə aparmışdır. Onun iştirak etdiyi döyüşlər Azərbaycan Ordusunun qələbəsində mühüm rol oynamışdır.

Vüsalın igidliyi döyüş yoldaşları tərəfindən daima xatırlanır. O, son nəfəsinə qədər mübarizə apararaq şəhidlik zirvəsinə yüksəlmişdir. Onun şücaəti Azərbaycan xalqı üçün əbədi yadda qalacaq və gələcək nəsillər üçün vətənpərvərlik nümunəsi olacaqdır.

Onun qisas həmləsindən
Gəbərirdi neçə düşmən,
Neçə namərd.
Tarix yazanlardan oldu
Xocavənddə, Cəbrayılda,
Füzulidə mərd oğlu mərd! [7, s.14]

Şəhid Vüsal Kazımov komandir olduğu müddətdə döyüş yoldaşları ilə nümunəvi bir rəhbər və qayğıkeş bir dost kimi davranmışdır. Döyüşlərdə onların təhlükəsizliyini təmin etmək üçün hər zaman ön cəbhədə olmuş, hər bir qərarını onların həyatını düşünərək vermişdir.

Yarasına komandirtək
Sığal çəkdin,
Məlhəm qoydun qazilərin –
Səngərdə şax duranların.
Uğuruna uğur qatdın,
Zəfər qatdın,
“İti qovan”,
Qapaz vuran dronların. [7, s.19]

Vüsal Kazımovun ailə həsrəti onun Vətənə olan sevgisi ilə bərabər addımlayırdı. O, ailəsini çox sevirdi, lakin bilir və inanırdı ki, onların gələcəyi üçün bu mübarizə aparılmalıdır. O, öz

ailəsini, doğmalarını və bütün Azərbaycan xalqını qorumaq üçün döyüşdü və şəhidlik zirvəsinə ucaldı. Bu gün onun ailəsi, eləcə də bütün xalq onunla qürur duyur və xatirəsini yaşadır.

E.Səfərli misralarında Vüsal Kazımovu həm onun döyüşdəki igidliyini, həm də müharibənin insan ruhuna təsirini tərənnüm edir. Şair, onun şəhidlik və mübarizə yolundakı kədərli, amma şərəfli taleyini vurğulayır, vətən uğrunda canını fəda etməsini isə bir müqəddəs borc kimi təqdim edir. Müharibə və vətənpərvərlik kimi mövzuları dərin fəlsəfi və emosional bir şəkildə şeirə çevirən şair, Vüsal Kazımovun qəhrəmanlığını bütün xalqın yaddaşına həkk edir.

Elşad Səfərlinin “Bir anın yuxusu” poeması bizi – müstəqil Azərbaycanın gənclərini həm duyğulandırır, həm düşündürür, həm də vətənpərvərlik ruhumuzu daha da gücləndirir. Bu əsər təkcə bir şəhidin həyatını və onun Vətən sevgisini əks etdirmir, eyni zamanda gənc nəsillərə böyük bir mesaj verir: Vətən üçün yaşamaq və lazım gələrsə uğrunda canını fəda etmək əbədi şərəfdir. Bizlər bu gün azad və suveren bir ölkədə yaşayırıqsa, bu, şəhidlərimizin fədakarlığı sayəsində mümkün olmuşdur. Onların qəhrəmanlığı bizim üçün təkcə keçmişin bir parçası deyil, həm də gələcəyə açılan bir yol, bir çağırışdır. Biz gənclər inanırıq ki, “Bir anın yuxusu” kimi əsərlər gələcək nəsillərə ötürülməli, məktəblərdə, universitetlərdə geniş şəkildə oxudulmalıdır. Çünki bu kimi əsərlər bizim milli ruhumuzu gücləndirir, bizi daha vətənpərvər, daha iradəli və daha məsuliyyətli vətəndaş olmağa səsləyir.

Elşad Səfərlinin yaradıcılığı, ümumiyyətlə, vətənə bağlılıq, xalqın keçmişi və gələcəyi, milli ruhun qorunması kimi mövzulara geniş yer ayırır. Müəllifin bu mövzuda yazdığı *“Bir yalquzaq təkliyi”* kitabında da vətənpərvərlik və milli birlik ideyaları öz əksini tapır. Kitabın annotasiyasında qeyd olunur: *"Bu tanınmış istedadlı şair və nəzəriyyəçi ədəbiyyatşünas alim, tənqidçi Elşad Səfərlinin sayca iyirminci kitabıdır. Kitabda müxtəlif mövzulu şeirlər və poemalar toplanmışdır. Şeirlərdə rəngarəng lirika, aktual problemlərə həssas vətəndaş münasibəti və mövqe tendesiyası diqqətçəkəndir. Həmçinin bu əsərlərdə şairin özünəxas, fərqli ifadə tərzi və digər sənətkarlıq prinsipləri qabarıqdır" [8, s.2 ].*

Kitabın əsas mesajlarından biri xalqın birliyinin önəmli olmasıdır. Müəllif oxucunu milli kimliyini qorumağa, vətən üçün həmrəy olmağa səsləyir. Şeirlərdə insanın təkliyi fonunda cəmiyyət içindəki mövqeyi və bu birliyin gücü poetik dillə işlənir. “Yalquzaq təkliyi" ifadəsi burada simvolik mənada işlədilir. Bir tərəfdən fərdin daxili dünyasını, digər tərəfdən isə xalqın zaman-zaman tarixdə yaşadığı tənhalıq və mübarizə anlarını ifadə edir. Lakin bu tənhalıq ümidsizliyin deyil, gücün və dözümlülüyün rəmzi kimi təqdim olunur.

Şəddat Cəfərov yazır: *“E.Səfərlinin “Oyun” adlı şeiri var. Şeirin motivi təkcə bir oyunla bağlı deyil. Hətta Vətənin başı üstündə oyun quranlar da burada ittiham olunur. Sevginin özünə də bir oyun baxışı var bu şeirdə. E.Səfərli onsuz da yazılarında xalq deyimlərindən də məharətlə istifadə edə bilir. Bəlkə də bu şeirin yaranmasında “ayının min oyunu var, bir armudun başında” məsələlərinin də təsiri az olmayıb”* [3, s.10].

Oyurmuşduq biz bir odun başında,
Düşmən oyun açdı yurdun başında.
Mat qalmışam...
“Bir armudun başında”
Ayıların çıxardığı oyundan.

Vətən birdi,
Taxt da birdi, əzizlər!
Əsil oğul daim yurdu əzizlər.
Aramızı elə vurdu – əzizlər,
Yad zövq alır yaratdığı oyundan.

Yurd itirdik – mübarizə əlindən,
Yadın gəldik min qərəzə əlindən.
Qurtulmuruq "qızıl gürzə" əlindən
Şərin bizə yaşatdığı oyundan. [8, s.33]

Şair burada metaforalar və simvolik ifadələrdən istifadə edərək oxucunu düşünməyə və hadisələrin dərin mənasını anlamağa sövq edir. Şeirin ilk bəndində *"Düşmən oyun açdı yurdun başında"* ifadəsi düşmənin məkrli planlarını simvolizə edir. Burada məqsəd yad qüvvələrin millətimiz üzərində oynadığı oyunları, daxili parçalanma və süni münaqişələri vurğulamaqdır. *"Ayıların çıxardığı oyun"* ifadəsi isə tarix boyu xalqımıza zərər vermiş yad təsirlərə işarədir. *"Vətən birdi, Taxt da birdi, əzizlər!"* misrası vətənin bütövlüyünü və xalqın birliyinin vacibliyini önə çəkir. Burada vurğulanan əsas fikir odur ki, əsl vətənpərvər millətini, torpağını qoruyandır. Lakin *"Aramızı elə vurdu – əzizlər, Yad zövq alır yaratdığı oyundan"* misrası xalqın içində parçalanma yaratmağa çalışan xarici və daxili düşmənlərin məqsədlərini ifşa edir. *"Qurtulmuruq "qızıl gürzə" əlindən"* ifadəsi isə Azərbaycan xalqına daim təhlükə törədən qüvvələri simvolizə edir və mübarizənin hələ də davam etdiyini bildirir. "Qızıl gürzə" ifadəsində Rus-Sovet xuntasını nəzərdə tutulduğunu kim anlamır ki?! Və həmin Xuntanın sifəti bu ifadədə necə də gülünc, müdlüş görünür.

Şair bu şeirdə Azərbaycan xalqına edilən haqsızlıqları, düşmən oyunlarını və yad qüvvələrin bizim birliyimizi pozmaq üçün etdiklərini poetik dillə çatdırır. Əsas mesaj isə budur: *biz bir olmalıyıq, torpağımıza sahib çıxmalı, düşmənlərin oyununa aldanmamalıyıq.*

Qarabağ müharibəsi Azərbaycan tarixinin ən mühüm və şanlı səhifələrindən biridir. Bu tarixi hadisələr təkcə döyüş meydanlarında deyil, həm də ədəbiyyatda, sənətdə və publisistikada öz əksini tapmışdır. E.Səfərlinin bu mövzuya qəlbən yanaşması da şairin özünün vətənə,vətənin igid oğullarına sevgisindən irəli gəlir.

Elşad Səfərli Qarabağ müharibəsinə dair qələmə aldığı əsərlərində Azərbaycan xalqının keçdiyi çətin sınaqları, qəhrəmanlıq tarixini və milli ruhunu dərin şəkildə əks etdirir. Müəllifin əsərləri vasitəsilə oxucular Qarabağ həqiqətlərini daha dərindən anlamaq və bu şanlı tarixdən ibrət dərsi götürmək imkanı əldə edirlər. Məhz bu mövzuda şairin "Ayrılıqlar vağzalı" kitabı vətən həsrətini, milli kimlik uğrunda mübarizəni və Qarabağ dərdini bədii şəkildə ifadə edərək, oxucuda vətənpərvərlik ruhunu gücləndirən təsirli bir əsər kimi ön plana çıxır. Vaqif Yusifli poemanın "Ön söz"ündə yazır: *"Elşad Səfərlinin bu kitabında sizə təqdim edilən "Mavi məsafə" lirik poeması, məncə, onun indiyə qədər qələmə aldığı – çap etdirdiyi poemalarından onunla fərqlənir ki, burada müəyyən bir hadisə, konkret obrazlar heç bir rol oynamır. Əsas məsələ lirik düşüncə arealını ön planda təqdim edib bir hadisəni deyil, hadisələr silsiləsini əks etdirməkdir. Əlbəttə, E.Səfərli Azərbaycan tarixinin XIX-XX əsrlərdəki məlum əsərlərini bir də "oxuyur". Poemanın giriş hissəsində məsafə – ayrılıq məfhumlarının mənaları aydınlaşdırılır və bu iki məfhumun bir-birilə bağlılığı – sintezi nəzərə çarpdırılır. Məsafənin ayrılıq olduğunu Elşad Səfərli kəşf eləməyib, bunu həm fiziki, həm də məcazi mənada dərk etmək olar. Bir insanla digər insan arasında müəyyən məsafə varsa, deməli, bunu ayrılığa da yozmaq olar, nəinki uzaq-uzaq şəhərlərdə yaşayıb bir-birinə həsrət qalan insanların ayrılığını. Amma Elşad Səfərli məsafə məfhumuna mavi rəngini qatır və adi ayrılıqları deyil, iki əsrdir bir-birindən ayrı düşən Azərbaycanın o tay-bu tayı ilə Arxalanan Milli Ayrılığı, Vətən Ayrılığını düşünür"* [6, s.11]

Məsafə – ayrılıqdır,
Fərqi yox,
Böyük nəhrin,
Dənizin
İki sahil arası qədər olsun,

Ya çarpayı arası qədər.
Ya parçalanmış Ayın
Bir ayparası qədər.
Ya da ayrılıq olsun
Bu tay,
O tay arası –
Araz arası qədər... [6, s.202]

Şeir ayrılığın coğrafi, emosional və metafizik aspektlərini araşdırır. Müəllif vurğulayır ki, ayrılıq bəzən böyük məsafələrlə, bəzən isə sadəcə bir çarpayı qədər kiçik bir uzaqlıqla ölçülə bilər. Amma məsafənin ölçüsü fərq etmədən ayrılıq hər zaman ağrılı və sarsıdıcıdır. Şeirdə Araz çayına xüsusi yer verilməsi təsadüfi deyil. Bu simvol Şimali və Cənubi Azərbaycan arasındakı ayrılığı, tarixi haqsızlıqları və həsrəti xatırladır. Müəllif bununla təkcə fərdi ayrılıq deyil, həm də xalqın kollektiv ayrılıq ağrısını ön plana çıxarır.

Kitaba daxil olan "Məmməd Arazın ruhuna gözaydınlığı" şeiri Qarabağ müharibəsində qazandığımız qələbənin, şəhidlərin ruhuna ehtiramın və xalqımızın yenilməzliyinin poetik ifadəsidir. Bu əsər adından da göründüyü kimi Azərbaycan ədəbiyyatının böyük vətənpərvər şairlərindən olan Məmməd Arazın ruhuna bir ehtiramdır. Şəddat Cəfərov qeyd etdiyimiz əsər haqqında yazır: *"Elşad Səfərli sələfləri ilə daim mənəvi və ruhi təmasdadır. Onun Məmməd Araz poeziyası ilə bağlılığını özünün yaradıcılıq üslubu da təsdiq edir. Bir sözlə, onun yaradıcılığında ardıcıl olaraq biz sələflərin də nəfəsini duyuruq. Bunun üçün ən yaxşı nümunə elə Elşad Səfərlinin özünün Məmməd Araz ruhu ilə bağlılığını əks etdirən "Məmməd Arazın ruhuna gözaydınlığı" şeiridir. Bu şeirin əsas dəyəri ondan ibarətdir ki, Elşad Səfərli də yaradıcı vətən övladı kimi Məmməd Arazın hansı nisgillə bu dünyadan getdiyini yaxşı bilir. O, çox istəyərdi ki, M.Araz da Qarabağın işğaldan azad olnmasını görəydi. O, Qarabağın nisgili ilə dünyadan getməyəydi. Ancaq neyləmək olar? Yaşam, həyat yolu – bütün bunlar hamısı bir çox hallarda insanın özündən asılı olmur. Və Məmməd Araz kimi çoxları da Qarabğın işğaldan azad olunmasını görmək istəyi ilə dünyadan getdi"* [4, s.10].

Məmməd Araz uzun illər yaradıcılığında Qarabağ həsrətini, torpaq itkisini, Vətənin çəkdiyi ağrını ifadə edib, torpağının bütövlüyünü arzulayırdı. Elşad Səfərli isə bu şeiri ilə sanki Məmməd Arazın ruhuna qələbə müjdəsi verir, onun həsrətini sona çatdırır. Şair bu şeirdə sanki ona səslənərək deyir ki, arzuların gerçəkləşdi, Vətən azaddır. Bu həm də ədəbiyyatın və tariximizin bir növ dialoqudur. Şeirdə müəllif Azərbaycan xalqının ədalətli mübarizəsinin nəticəsində Qarabağın azad olunduğunu bildirir. Məmməd Araz sağlığında bu qələbəni görə bilməsə də, onun ruhuna bir rahatlıq, bir gözaydınlığı verilir.

***Məqalənin elmi nəticəsi.*** Elşad Səfərlinin yaradıcılığında vətənin bütövlüyü və milli birlik ideyalarının tədqiqi ədəbi və ictimai baxımdan mühüm elmi nəticələrə gətirib çıxarır. Bu nəticələr ədəbiyyatşünaslıq sahəsində və milli ideologiyanın formalaşması baxımından əhəmiyyətlidir. Şairin poeziyasında milli kimlik, tarixi yaddaş və torpaq bütövlüyü uğrunda mübarizə motivləri ardıcıl işlənmiş, bu da onun müasir Azərbaycan poeziyasında vətənpərvərlik ideyalarının bədii ifadəçisi kimi önəmli yer tutmasına səbəb olmuşdur. Bununla yanaşı, tədqiqatın nəticələri göstərir ki, bu cür ədəbi nümunələr xüsusilə gənc nəslin vətənə bağlılıq hissinin güclənməsində, milli birliyin və həmrəyliyin bədii dildə təbliğində mühüm rol oynayır.

***İşin tətbiqi əhəmiyyəti.*** Elşad Səfərli yaradıcılığının tətbiqi əhəmiyyəti onun poeziyasının yalnız estetik deyil, eyni zamanda ictimai, tərbiyəvi və ideoloji funksiyalar daşımasında özünü göstərir. Onun əsərləri bir çox sahədə – ali təhsil müəssisələrində, hərbi təlimlərdə, ictimai tədbirlər, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və milli ideologiyanın möhkəmləndirilməsi istiqamətində uğurla istifadə oluna bilər. Bu mövzuların tədrisi və təhlili həm ədəbi zövqün, həm də vətəndaş məsuliyyətinin inkişafına xidmət edir.

***İşin elmi yeniliyi.*** Elşad Səfərlinin yaradıcılığında vətənin bütövlüyü və milli birlik ideyalarının tədqiqinin elmi yeniliyi bu mövzunun müasir dövr kontekstində ilk dəfə sistemli şəkildə araşdırılması ilə bağlıdır. Bu mövzuda Elşad Səfərlinin yaradıcılığına əsaslanaraq, XXI əsr Azərbaycan poeziyasında milli birliyin və vətən ideyasının necə inkişaf etdiyi və hansı poetik vasitələrlə ifadə olunduğu ilk dəfə bu qədər əhatəli araşdırılır. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın bütövləşməsi şairlərin yaradıcılığında yeni ruh və məna qazandı. Bu kontekstdə Elşad Səfərlinin poeziyası post-müharibə dövrünün ideoloji-mənəvi ədəbiyyatı kimi qiymətləndirilir ki, bu da araşdırmanın aktual və yenilikçi tərəfidir.

Bu gün müstəqil Azərbaycanın gənc nəsli vətənin bütövlüyünü və milli birliyini qorumağın nə qədər vacib olduğunu dərk edir. Qarabağ Zəfəri sübut etdi ki, xalq birləşdikdə heç bir güc onu sındıra bilməz. Vətənpərvərlik təkcə döyüş meydanında deyil, həm də elm, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə ölkəmizi inkişaf etdirməklə özünü göstərir.

Gənclərimiz Elşad Səfərli kimi yazıçı və şairlərimizin yaradıcılığından öyrənməyə, onların ötürdüyü milli birlik və vətən sevgisi mesajını yaşatmalı və gələcək nəsillərə ötürməyə borcludurlar. Çünki milli ruhu yaşadan gənclik vətənin ən böyük sərvətidir**.**

## Ədəbiyyat


1. Cəfərov, Ş. İki çiçəyin dastanı, Resenziya // Kredo, – Bakı, – 2020, 26 noyabr, – №43 (1023), –s. 11.
2. Cəfərov, Ş. Poeziya sirlər məkanıdır (E.Səfərlinin "Bir yalquzaq təkliyi" kitabı üzərində düşüncələr) // Kredo, – Bakı, 2022, 07 sentyabr, – №36 (1116), – s.8-9-10-11.
3. Cəfərov, Ş. Poeziya sirlər məkanıdır (əvvəli qəzetin 36-cı sayında) // Kredo, – Bakı, – 2022, 14 sentyabr, – №37 (1117), – s.10-11.
4. Cəfərov, Ş. Elşad Səfərlinin "Ayrılıqlar vağzalı" (şairin yeni kitabı üzərində düşüncələr) // Kredo, – Bakı, – 2023, 27 aprel, – №16 (1146), – s.10-11.
5. Səfərli, E. Alması düşməyən nağıllar. Şeirlər və poemalar / E.Səfərli, – Bakı: Elm və təhsil, – 2016. – 244 s.
6. Səfərli, E. Ayrılıqlar vağzalı. Şeirlər və poemalar / E.Səfərli, – Bakı: Gənclik, – 2023. – 248 s.
7. Səfərli, E. Bir anın yuxusu. Poema / E.Səfərli, – Bakı: Gənclik, – 2022. – 42 s.
8. Səfərli, E. Bir yalquzaq təkliyi. Şeirlər və poemalar / E.Səfərli, – Bakı, Gənclik, – 2022. – 346 s.
9. Səfərli, E. İki çiçəyin dastanı. Şeirlər və poemalar / E.Səfərli, – Bakı, Gənclik, – 2020. – 358 s.
10. Soltan, M., Həsənli, A. Gerçək bədii mətnin vəsfi // "525-ci qəzet", – Bakı, – 2021, 5 mart, №42 (5608), –s.14


**K.Sh.Kazimov, Z.S.Heydarova**

**The Theme of the Patriotic War and the Glorification of Love for the Homeland in Elshad Safarli's Poetry**

***Summary***


The article examines the reflection of the theme of war and patriotic ideas in the works of Elshad Safarli, one of the prominent and talented poets of modern Azerbaijani literature. It analyzes the realities of the Karabakh war, the suffering experienced by the people, and the spirit of struggle leading to victory in his works. The author's poetic style, system of imagery, and perspective on historical events are extensively interpreted.

The article also explores how the idea of patriotism is shaped in the literary context through the works of Elshad Safarli, emphasizing the key themes in his poems and epics, such as love for the homeland, national unity, the peak of martyrdom, hatred towards the enemy, and attachment to the land. Special attention is given to the hardships endured by the Azerbaijani people during the Second Karabakh War and the poetic expression of this struggle in literature.


***Keywords:*** *Patriotism, Second Karabakh War, Martyrdom, Mammad Araz, National Unity*

**К.Ш.Кязимов, З.С.Гейдарова**

**Тема Отечественной войны и прославление любви к Родине в поэзии Эльшада Сафарли**

***Резюме***

В статье исследуется отражение темы войны и патриотических идей в творчестве Эльшада Сафарли, одного из выдающихся и талантливых поэтов современной азербайджанской литературы. Анализируются реалии Карабахской войны, страдания народа и дух борьбы, приведший к победе, в его произведениях. Поэтический стиль автора, система образов и его взгляд на исторические события подробно рассматриваются.

В статье также рассматривается, как идея патриотизма формируется в литературном контексте через творчество Эльшада Сафарли, подчеркивая ключевые темы в его стихах и поэмах, такие как любовь к Родине, национальное единство, вершина мученичества, ненависть к врагу и привязанность к родной земле. Особое внимание уделяется страданиям азербайджанского народа в период Второй Карабахской войны и поэтическому выражению этой борьбы в литературе.

***Ключевые слова:*** *патриотизм, Вторая Карабахская война, шехидство, Мамед Араз, национальное единство*

*Rəyçi: dos. E.Səfərli*

*Redaksiyaya daxil olub: 30.04.2025*